2017-ci ilin yanvar-iyul aylarında muxtar respublikada fəaliyyət göstərən müəssisə və təşkilatlar, fiziki şəxslər tərəfindən aparılan ticarət əməliyyatları nəticəsində 238339,6 min ABŞ dolları həcmində xarici ticarət dövriyyəsi yaranmışdır. Xarici ticarət dövriyyəsinin 220484 min ABŞ dollarını yaxud 92,5 faizini ixrac, 17855,6 min ABŞ dollarını yaxud 7,5 faizini idxal təşkil etmişdir.

İdxalın həcmi son bir il ərzində 23,3 faiz azalmış, ixracın həcmi isə 1,3 faiz artmışdır. Ümumilikdə bu dövr ərzində 202628,4 min Amerika Birləşmiş Ştatları dolları həcmində müsbət saldo yaranmışdır.